Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
AZ 1014, Bakı şəhəri, Bül-bül prospekti 40
+(994 12) 598 1946 office@fiu.az www.fiu.az

Maliyyə Monitorinqi Xidməti

AZƏRBAYCAN RESPUBLİKASININ
MALİYYƏ MONİTORİNQİ XİDMƏTİNİN
2020-ci il üzrə

# İLLİK HESABATI



2020



# MÜNDƏRİCAT


| | |
|---|---|
| Akronimlər | 3 |
| Ön söz | 5 |
| Qanunvericiliyin təkmilləşdirilməsi | 6 |
| Nəzarət fəaliyyəti | 8 |
| Analitik fəaliyyət | 9 |
| Statistika | 10 |
| Daxili əməkdaşlıq | 14 |
| Beynəlxalq əməkdaşlıq | 16 |
| İnformasiya texnologiyaları | 18 |

# AKRONİMLƏR



| | |
|---|---|
| ATTF | Lüksemburq Böyük Hersoqluğunun Təlim Mərkəzi |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| CƏH | Cari Əməliyyat Hesabatları |
| DƏH | Digər Əməliyyatlar barədə Hesabatlar |
| Eqmont Qrupu | Maliyyə Monitorinqi Orqanlarının İxtisaslaşmış Qurumu |
| FATF | Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| GoAML | Xüsusi analitik modul sistemi |
| GUAM | Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova – Demokratiya və İqtisadi İnkişaf üzrə Təşkilat |
| HMO | Hüquq Mühafizə Orqanları |
| İT | İnformasiya Texnologiyaları |
| MONEYVAL | Avropa Şurasının Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| MMX | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti |
| MMO | Maliyyə monitorinqi orqanı |
| MRQ | Milli Risk Qiymətləndirilməsi |
| PL/TM | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi |
| PL/TMM | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə |
| ŞƏH | Şübhəli Əməliyyat Hesabatları |
| YRƏ | Yüksək Riskli Hesabatlar |



# ÖN SÖZ

Hər ötən il yaddaşımıza fərqli və özünəməxsus hadisələrlə həkk olunur. 2020-ci il bütün dünya üçün mürəkkəb, qarışıq, xüsusilə də ölkəmiz üçün təfavütlü hadisələrlə tarixə qovuşdu. Əlbəttə ki, ölkə rəhbəri Ali Baş Komandan cənab İlham Əliyevin müfəssəl düşünülmüş və məqsədyönlü qərarları, qüdrətli Azərbaycan Ordusunun şücaəti nəticəsində uzun illərdən bəri işğalda olan torpaqlarımıza qovuşmağımız ölkəmiz və xalqımız üçün olduqca önəmli hadisə oldu.

Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə fəaliyyət göstərən əsas qurumlardan biri olan Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti 2020-ci il ərzində təşkilati, institusional inkişafı və beynəlxalq nüfuzunun gücləndirilməsi siyasətini və əlaqələndirməni həyata keçirən dövlət qurumu kimi fəaliyyətini davam etdirmişdir.

Qlobal COVİD-19 pandemiyası şəraitinin yaratdığı məhdudiyyətlərə baxmayaraq, MMX əməkdaşlarının bilik və bacarıqlarının artırılması istiqamətində onların yerli, habelə beynəlxalq tədbirlərdə iştirakı müvafiq qaydada təmin edilmiş, insan resursları sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülmüş, yeni beynəlxalq məlumat bazalarına giriş imkanı əldə edilmişdir.

Qeyd edilməlidir ki, MMX-nin beynəlxalq əməkdaşlığının genişləndirilməsi və nüfuzunun artırılması istiqamətində sistemli işlər aparılmışdır. Belə tədbirlərin nəticəsi olaraq, Eqmont Qrupunun Üzvlük, Dəstək və Uyğunluq alt qrupuna sədr müavini vəzifəsinə əməkdaşımızın seçilməsi ilə Eqmont Qrupu üçün strateji əhəmiyyət daşıyan məsələlərin əlaqələndirilməsi və üzvlük proseslərinə nəzarətin həyata keçirilməsində birbaşa iştirakımız təmin edilmişdir. Bu hadisənin həm ölkəmiz, həm də MMX adına böyük nailiyyət kimi qiymətləndirildiyini vurğulamaq yerinə düşərdi.

MMX-nin beynəlxalq təşkilatlar və digər ölkələrin səlahiyyətli qurumları ilə əməkdaşlığı çərçivəsində əldə edilmiş nailiyyətlərdən biri də, Eqmont Qrupuna üzvlüyü çərçivəsində qurumumuzun sponsorluq etdiyi Monteneqronun MMO-su olan Çirkli Pulların Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Mübarizə Departamentinin Eqmont Qrupuna tamhüquqlu üzv seçilməsi olmuşdur.

Ölkəmizi qarşıda V raund MONEYVAL qiymətləndirməsi gözlədiyinə görə, təbii ki, MMX-də bu istiqamətdə görülən işlərə xüsusi diqqət ayrılmışdır. Belə ki, MONEYVAL Komitəsi çərçivəsində də əməkdaşlığın intensivləşdirilməsi istiqamətində bir sıra addımlar atılmışdır. Komitənin plenar iclaslarında, təlimlərində, işçi qrupların görüşlərində MMX əməkdaşları fəal iştirak edərək qurumumuzu təmsil etmişlər. Xüsusilə qeyd edilməlidir ki, gələcək qiymətləndirməyə hazırlıq məqsədilə beynəlxalq ekspertlər MMX tərəfindən əməkdaşlığa cəlb edilmişdir.

PL/TMM üzrə milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə 2020-ci ildə “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanun layihələrinin hazırlanması xüsusi qeyd edilməlidir.

Son olaraq bildirmək istərdim ki, ölkəmizdə iqtisadi fəaliyyət artdıqca PL/TMM təhdidlərinin əhatə dairəsinin və tezliyinin də arta biləcəyi ehtimalını nəzərə alaraq, MMX belə hallara qarşı ehtiyatla, məsuliyyətlə dövlət siyasətini həyata keçirmək istiqamətində tədbirlərini görür. Əminəm ki, qarşıdakı illərdə də ölkəmizdə PL/TMM sisteminin tam şəffaf təmin edilməsinə MMX öz töhfəsini verməyə davam edəcək.

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**

# QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ

2020-ci ildə Azərbaycan Respublikasında PL/TMM sahəsində həyata keçirilən islahatlar çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq səviyyədə mövcud olan standartlarla harmonizasiyası, habelə PL/TMM üzrə siyasət quruculuğu çərçivəsində ölkədaxili koordinasiyasının institusional əsaslarının formalaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür.

Qanunvericiliyin təkmilləşdirilməsi üzrə atılan addımlar, əsas etibarilə, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra – Milli Fəaliyyət Planı) çərçivəsindəki öhdəliklərin icrasını əhatə etmişdir.

PL/TMM üzrə milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanun layihələri hazırlanmışdır. Sözügedən Qanun layihələrinə münasibətdə qanunvericilikdə uyğunlaşdırmaların aparılması məqsədilə "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının qanun layihələri də MMX tərəfindən hazırlanmışdır.

Bundan başqa, benefisiar mülkiyyətçi barədə məlumatların müəyyən edilməsinə dair normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə xarici ölkələrin təcrübələri və bu sahədə beynəlxalq standartlar paralel olaraq təhlil olunmuş, həmçinin benefisiar mülkiyyətçilik institutunun implementasiyası məqsədilə qanunvericiliyə dəyişiklik layihələri də hazırlanmışdır. Benefisiar mülkiyyətçilik institutunun milli qanunvericiliyə implementasiyası məqsədilə bir sıra Qanun layihələri hazırlanmışdır.

Eyni zamanda, beynəlxalq normalarda yer alan "maliyyə istintaqı" institutunun implementasiyasına dair aidiyyəti hüquq mühafizə orqanları ilə müzakirələr aparılmışdır.

Hesabat ili ərzində BMT-nin Regionlararası Cinayət və Ədalət Tədqiqat İnstitutu ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi zamanı istifadə edilən əmlakın dövlət nəfinə alınması ilə bağlı maddi və prosessual qanunvericilik təkmilləşdirilmiş, habelə genişləndirilmiş və mülki müsadirə prosedurları tətbiq edilmiş, aktivlərin bərpası yollarının diversifikasiyasının təmin edilməsi ilə əlaqədar işlər görülmüşdür.





2020-ci il ərzində milli PL/TMM sisteminin funksional və institusional inkişafı istiqamətində də bir sıra addımlar atılmışdır. Bu çərçivədə atılan addımlar Milli Fəaliyyət Planının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarından irəli gələn tapşırıqların icrasını əhatə etmişdir. Sözügedən Qərar ilə PL/TMM sisteminin milli risk qiymətləndirməsinin (MRQ) mütəmadi qaydada həyata keçirilməsinin təmin edilməsi, habelə Avropa Şurasının MONEYVAL Komitəsinin ölkəmizə münasibətdə aparılacaq V raund qiymətləndirilməsinə hazırlıq çərçivəsində makrosəviyyədə əlaqələndirmənin təşkili məqsədilə Koordinasiya Şurası yaradılmışdır. Müvafiq Koordinasiya Şurasına aidiyyəti dövlət orqanları (qurumları), habelə ictimai təşkilatlar daxil edilmişdir. Koordinasiya Şurasının tərkibinə daxil edilməklə yanaşı, katiblik funksiyasının icrası da MMX-yə həvalə edilmişdir.

## NƏZARƏT FƏALİYYƏTİ

2020-ci ildə nəzarət orqanı kimi öhdəliklərin icrası çərçivəsində PL/TMM üzrə milli qanunvericilik və beynəlxalq standartlar əsas götürülməklə risk əsaslı nəzarət mexanizminin formalaşdırılması məqsədilə tədbirlər davam etdirilmişdir. Bu çərçivədə qanunvericiliyə əsasən MMX-nin nəzarət orqanı kimi çıxış etdiyi lombardlar və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə münasibətdə risk əsaslı nəzarət modeli, habelə sözügedən monitorinq subyektlərinə münasibətdə həyata keçiriləcək nəzarət tədbirləri zamanı istifadə olunması üçün yoxlama sualları hazırlanmışdır. Bundan başqa PL/TMM üzrə komplayens proqramının əsas elementlərinə dair (müştəri uyğunluğu tədbirləri, daxili audit, əməliyyatların təhlili) qaydalar da hesabat ili ərzində yenilənmişdir.

Monitorinq subyektlərinin PL/TMM qanunvericiliyindən irəli gələn öhdəliklər barədə məlumatlandırılması, həmçinin PL/TMM üzrə uğurlu beynəlxalq təcrübələrdən faydalanması məqsədilə MMX tərəfindən müvafiq tədbirlər görülmüşdür.

Eyni zamanda, "Monitorinq subyektlərinin daxili nəzarət sistemlərinin hazırlanmasına dair tələblər"də dəyişikliklər edilmiş, birbaşa əlaqə qurmadan həyata keçirilən əməliyyatlar zamanı müştəri uyğunluğu tədbirləri, risklərin azaldılması və əməliyyatların təhlili üzrə müddəalar daxil edilmişdir.

Son olaraq "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısı" da ötən il ərzində  mütəmadi olaraq yenilənmiş və bu barədə PL/TMM üzrə nəzarət orqanlarına məlumat verilmişdir.





## ANALİTİK FƏALİYYƏT

MMX-də şübhəli əməliyyatlar barədə hesabatların təhlili "Məlumatların təhlili departamentində araşdırma və təhlil fəaliyyətinə dair Təlimat"a uyğun olaraq "GoAML" proqram təminatı vasitəsilə həyata keçirilir.

MMX-nin analitik fəaliyyəti taktiki və strateji təhlildən ibarətdir. Fiziki və hüquqi şəxslər və ya işi sübut edən hadisələr haqqında faktların dürüst ifadə edilməsi və işin formalaşdırılması üçün zəruri olan məlumatların yığımı prosesi kimi taktiki təhlil zamanı monitorinq subyektlərindən əldə olunmuş məlumatlarla digər taktiki məlumatlar müqayisə edilmişdir.

Taktiki məlumatın əsas mənbəyini MMX-nin analitik informasiya sistemində yığılan məlumatlar, məlumata ümumi giriş imkanı olan mənbələr (şirkətlərin reyestri, auditor şirkətlərinin hesabatları, telefon bazaları, internet və s.), dövlət orqanlarının məlumat bazaları (vergi, ədliyyə, polis, miqrasiya, gömrük, daşınar və daşınmaz əmlakın qeydiyyatı və s.), ilkin məlumatı təqdim etmiş monitorinq subyektlərindən əldə olunmuş əlavə məlumatlar və digər ölkələrin maliyyə kəşfiyyat orqanları tərəfindən təqdim edilmiş məlumatlar təşkil edir.

Strateji təhlil zamanı MMX-nin gələcəkdə ümumi fəaliyyət istiqamətlərinin müəyyən edilməsinə kömək edən, onun fəaliyyətində istifadə oluna bilən biliklər, strateji məlumatlar bazası formalaşdırılır. Belə məlumatlar yeni problem və meyllərə, ümumi meyllərə və tipologiyalara, modellərə, coğrafi tədqiqatlara, şübhəlilik meyarlarına, davranış əlamətlərinə, cinayət fəaliyyətinin modellərinə, kriminal sxemlərə və digər analitik məhsullara aiddir. Strateji təhlilin əhatə dairəsinə hər hansı konkret qrupda kriminal sxemlərin müəyyən edilməsi, eləcə də cinayət fəaliyyətinin yeni modellərinin geniş konsepsiyalarının hazırlanması daxildir.

# STATİSTİKA

2020-ci il ərzində monitorinq subyektləri tərəfindən MMX-yə ümumilikdə 47.945 hesabat[1] təqdim olunmuşdur. (Diaqram 1).

**Diaqram 1.**
**2019-2020-ci illər üzrə MMX-yə daxil olmuş hesabatların sayı**




MMX-nin elektron informasiya bazasına daxil olmuş müvafiq məlumatlardan 28104-ü (59%) cari əməliyyatlar, 5291-i (11%) “qara siyahıya" daxil edilmiş ölkələrə dair əməliyyatlar, 4275-i (9%) xarici dövlətin siyasi xadimlərinin cari əməliyyatları, 8507-si (18%) qeyri-hökumət və dini təşkilatların əməliyyatları, 496-sı (1%) şübhəli əməliyyatlar barədə və 1272-si (3%) isə digər növ hesabatlar olmuşdur.

[1] MMX-ya məlumatlar hesabat (report) formasında daxil olur. Bir hesabata bir və birdən çox əlaqəli əməliyyatlar (transactions) əlavə oluna bilər.





**Cədvəl 1.**
**2020-ci ildə MMX-yə təqdim edilmiş hesabatların strukturu**

| Daxil olmuş hesabatların kateqoriyaları | Hesabatların sayı | Nisbət (%-lə) |
|---|---|---|
| Cari əməliyyatlar | 28 104 | 58% |
| “Qara siyahı" ölkələri ilə əməliyyatlar | 5 291 | 11% |
| Xarici dövlətlərin siyasi xadimlərinin cari əməliyyatları | 4 275 | 9% |
| Qeyri-hökumət və dini təşkilatların əməliyyatları (QHT/DT) | 8 507 | 18% |
| Şübhəli əməliyyatlar | 496 | 1% |
| Digər əməliyyatlar | 1 272 | 3% |
| **CƏMİ** | **47 945** | |

2019-cu illə müqayisədə 2020-ci ildə cari əməliyyatlar üzrə hesabatların sayında 15% və “qara siyahı” ölkələri ilə olan əməliyyatlar üzrə hesabatların sayında 28% azalma olduğu halda, şübhəli əməliyyatlar üzrə hesabatların sayında 7% və xarici dövlətlərin siyasi xadimlərinin cari əməliyyatları üzrə hesabatların sayında 45% artım müşahidə edilmişdir. QHT/DT sayında isə 2019-cu illə müqayisədə dəyişiklik müşahidə edilməmişdir. 2020-ci il üzrə təqdim olunmuş hesabatlara əlavə olunmuş əməliyyatların 52%-ni hüquqi, 48%-ni isə fiziki şəxslərin əməliyyatları təşkil etmişdir.

**Diaqram 2.**
**2019-2020-cu illər üzrə daxil olmuş hesabatların kateqoriyalar üzrə sayı**




2020-ci ildə MMX-yə orta hesabla 1 iş günü ərzində 199 hesabat təqdim edilmişdir. 2020-ci il üzrə təqdim olunmuş hesabatlara əlavə olunmuş əməliyyatların 52%-ni hüquqi, 48%-ni isə fiziki şəxslərin əməliyyatları təşkil etmişdir. (Diaqram 3).

**Diaqram 3.**
**2019-2020-ci illər üzrə MMX-yə daxil olmuş hesabatların strukturunda əməliyyatları həyata keçirmiş subyektlərin növü üzrə bölgü**




Şübhəli əməliyyatların təhlili ilə əlaqədar cari ildə 3 187 daxili sorğu verilmişdir. Verilmiş sorğuların 98%-i (3 127-i) monitorinq subyektlərinin payına düşür (Cədvəl 2). Cari il ərzində şübhəli hal ilə bağlı Baş Prokurorluğa və Dövlət Təhlükəsizliyi Xidmətinə 15 məlumat təqdim edilmişdir.



**Cədvəl 2. 2020-ci ildə MMX tərəfindən sorğu verilmiş ölkədaxili subyektlər**

| Sorğu verilmiş ölkədaxili subyektlər | Sorğuların sayı |
|---|---|
| Monitorinq subyektlərinə verilmiş sorğular[2] | 3 127 |
| HMO-ya verilmiş sorğular | 36 |
| Digər ölkədaxili qurumlara verilmiş sorğular | 24 |
| **CƏMİ** | **3 187** |

Hesabat ili ərzində MMX tərəfindən monitorinq subyektlərindən daxil olmuş məlumatların araşdırılması nəticəsində şübhəli hallar ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğuna 6, Dövlət Təhlükəsizliyi Xidmətinə 9 məlumat təqdim edilmişdir. Bundan əlavə 2020-ci il ərzində hüquq mühafizə orqanlarından PL ilə bağlı daxil olmuş 19 sorğu və TM ilə bağlı daxil olmuş 7 sorğu aidiyyəti üzrə araşdırılaraq müvafiq hüquq mühafizə orqanına təqdim olunmuşdur.

**Cədvəl 3.**
**2020-ci il ərzində xarici maliyyə monitorinqi orqanlarından daxil olmuş məlumatlar**

| MMX-yə daxil olan məlumatların sayı | Spontan məlumatların sayı | Sorğuların sayı | Sorğuya cavabların sayı |
|---|---|---|---|
| 136 | 32 | 32 | 72 |

**Cədvəl 4.**
**2020-ci il ərzində MMX-dən xarici maliyyə monitorinqi orqanlarına getmiş məlumatlar**

| MMX- dən xaric olan məlumatlar | Spontan məlumatların sayı | Sorğuların sayı | Sorğuya cavabların sayı |
|---|---|---|---|
| 115 | 16 | 64 | 35 |

Taktiki təhlili əhatə edən bu fəaliyyətlərlə yanaşı, 2020-ci il ərzində MMX-də strateji təhlil üzrə də fəaliyyətlər davam etdirilmişdir. 2020-ci il ərzində HMO-a təqdim olunmuş işlər əsasında 4 tipologiya hazırlanmışdır.

[2] Monitorinq subyektlərinə sorğular GoAML proqram təminatı vasitəsilə elektron qaydada verilir.

# DAXİLİ ƏMƏKDAŞLIQ



Hesabat dövrü ərzində MMX-nin monitorinq subyektləri, nəzarət, hüquq mühafizə və məhkəmə orqanları, habelə digər dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı davam etdirilmişdir. COVİD-19 pandemiyasının yaratdığı məhdudiyyətlər səbəbindən MMX-nin monitorinq subyektləri, nəzarət və hüquq-mühafizə orqanları üçün təlimlər keçirməsi müəyyən müddətə təxirə salınsa da, sözügedən qurumların əməkdaşları ilə il ərzində mütəmadi olaraq onlayn görüşlər təşkil edilmiş, onlarla işçi qaydada sıx əlaqə saxlanılmışdır.

2020-ci ildə COVİD-19 pandemiyası ilə əlaqədar yarana biləcək risklər və bu sahədə ən yaxşı beynəlxalq təcrübələr təhlil edilmiş, məlumatlar monitorinq subyektləri, nəzarət və hüquq-mühafizə orqanları ilə paylaşılmış, habelə ictimaiyyəti məlumatlandırmaq və əhaliyə xəbərdarlıq etmək məqsədilə baş verə biləcək iqtisadi cinayət əməlləri ilə bağlı MMX-nin veb səhifəsində məlumatlar yerləşdirilmiş və müvafiq dövlət orqanları və qurumlarına göndərilmişdir.

İl ərzində keçirilən və MMX-nin iştirak etdiyi tədbirlər barədə press relizlər hazırlanmış, müvafiq olaraq, MMX-nin rəsmi internet səhifəsinə yerləşdirilmişdir. Bununla yanaşı, mütəmadi olaraq, BMT Təhlükəsizlik Şurasının haqqında sanksiya tətbiq edilməli şəxslər barədə məlumatlar izlənilərək “Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısı” rəsmi səhifədə mütəmadi olaraq yenilənmiş və aidiyyəti qurumlara müvafiq qaydada məlumat verilmişdir.

Avropa Şurası iyul ayında Maliyyə Monitorinqi Xidmətinin, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin, Baş Prokurorluğun, Mərkəzi Bankın, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndələrini bir araya gətirən video konfrans vasitəsilə “Məlumat təhlili alətləri: Microsoft Power BI” mövzusunda təlim keçirmişdir. Təlimin məqsədi aidiyyatı sahə üzrə fəaliyyət göstərən əməkdaşların Microsoft Power BI-nin istifadəsi ilə məlumatları effektiv şəkildə təhlil etmək və interaktiv hesabatlar hazırlamaq üçün bilik və bacarıqlara yiyələnməsi olmuşdur.

Qeyd edilənlərdən əlavə, ötən ilin dekabr ayında MMX-nin dəstəyi, Ədliyyə Nazirliyinin təşəbbüsü, Açıq Hökumət Milli Platformasının və ABŞ İnkişaf Agentliyinin Şəffaflıq naminə vətəndaş cəmiyyəti Layihəsinin (ECSOFT) texniki dəstəyi ilə qeyri-hökumət təşkilatları (QHT) üçün “Çirkli pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə QHT-lərin öhdəlikləri, bu sahədə risk əsaslı yanaşmanın tətbiqi” adlı onlayn təlim keçirilmişdir.

Daha sonra, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarına uyğun olaraq Koordinasiya Şurası yaradılmış və dekabr ayında PL/TMM sisteminin milli risk qiymətləndirilməsinin həyata keçirilməsi, MONEYVAL Komitəsi tərəfindən aparılacaq V raund qiymətləndirilməsinə hazırlığın təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Baş nazirinin müavini, Koordinasiya Şurasının sədri Əli Əhmədovun rəhbərliyi ilə Şuranın birinci iclası keçirilmişdir. İclasda PL/TMM sisteminin milli risk qiymətləndirilməsinin həyata keçirilməsi, V raund qiymətləndirilməyə hazırlığın təmin edilməsi və digər məsələlər müzakirə edilmişdir. Həmçinin, sözügedən Şuranın katiblik funksiyaları MMX-yə həvalə edilmişdir.

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



2020-ci il ərzində dövlətimizin beynəlxalq nüfuzunun daha da artırılması, PL/TMM sahəsində beynəlxalq əməkdaşlığın və məlumat mübadiləsinin genişləndirilməsi istiqamətində lazımi addımlar atılmış, habelə kadr potensialının gücləndirilməsi məqsədilə MMX-nin rəhbərliyi və əməkdaşlarının müxtəlif beynəlxalq tədbirlərdə iştirakı təmin edilmişdir.

Hesabat dövrü ərzində MMX əmakdaşının Eqmont Qrupunun Üzvlük, Dəstək və Uyğunluq alt qrupuna sədr müavini vəzifəsinə seçilməsi ilə “Eqmont” qrupu üçün strateji əhəmiyyət daşıyan məsələlərin əlaqələndirilməsi və üzvlük proseslərinə nəzarətin keçirilməsində birbaşa iştirakı təmin edilmişdir. Beləliklə, MMX-nin beynəlxalq əməldaşlıq sahəsində növbəti nailiyyəti əldə edilmişdir.

MONEYVAL Komitəsi ilə əməkdaşlıq çərçivəsində MMX rəhbərliyinin və əməkdaşlarının MONEYVAL-ın plenar iclaslarında, təşkil etdiyi tədbirlərdə iştirakı təmin edilmişdir.

MMX əməkdaşları Avropa Şurası / Avropa İttifaqı Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (PGG) proqramının Azərbaycanda çirkli pulların yuyulması ilə mübarizənin və aktivlərin qaytarılması işinin gücləndirilməsi layihəsi çərçivəsində keçirilmiş Varşava Konvensiyasının tədbiqi, Şərq Tərəfdaşlığı proqramı çərçivəsində əməkdaşlıq perspektivləri, çoxyurisdiksiyalı PL Əməkdaşlığı, PGG ortamüddətli nəticələrinə dair yüksək səviyyəli onlayn iclas və digər tədbirlərdə iştirak etmişlər.

Bundan əlavə, MMX-nin beynəlxalq əməkdaşlığını möhkəmləndirmək məqsədilə Türkmənistan, Fələstin, Səudiyyə Ərəbistan və Yaponiya MMO-ları ilə Anlaşma Memorandumlarının imzalanması üzrə danışıqlar aparılmış, əsaslı hazırlıq işləri görülmüşdür. Bundan əlavə, hesabat ilinin mart ayında o zaman Eqmont Qrupunun üzvü olmayan Monteneqro MMO ilə məlumatların mübadiləsinə dair əməliyyat sazişi imzalanmışdır.

MMX əməkdaşlarının Eqmont Qrupu, MONEYVAL, FATF tərəfindən təşkil edilən layihələrdə, virtual konfranslarda, habelə Lüksemburq Böyük Hersoqluğunun Təlim Mərkəzi (ATTF) ilə birlikdə cari ildə təşkil edilmiş tədbir və təlimlərdə iştirakı təmin edilmişdir. Belə tədbirlərdən, FATF tərəfindən təşkil edilən “COVID-19 ilə əlaqəli PL/TM riskləri və siyasət” veb seminarını, ATTF tərəfindən təşkil edilən “Pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə” üzrə video-konfrans formatında təlimi, “Beynəlxalq maliyyə yeniliklərinin təhlili” üzrə təlimi, “Menecerlər üçün Layihə İdarəetməsi” üzrə təlimi, “Pulların Leqallaşdırılmasına qarşı Mübarizə: Rüşvət və korrupsiya” üzrə təlimi, GUAM təşkilatının Hüquqi statistika üzrə işçi alt-qrupunun videokonfrans formatında keçirilən 11-ci iclası və digərlərini qeyd etmək olar.

Həmçinin, ötən il ərzində MONEYVAL Komitəsinin V raunduna hazırlığın təmin edilməsi məqsədilə beynəlxalq ekspertlə əməkdaşlıq edilmiş, müvafiq qurumların PL/TM ilə əlaqədar əməkdaşları ilə görüşlər təşkil edilmiş və bu görüşlərin əsasında “sınaq qiymətləndirmə” aparılmışdır.

# İNFORMASİYA TEXNOLOGİYALARI



MMX-nin informasiya texnologiyaları (İT) infrastrukturunun təkmilləşdirilməsi və müvafiq elektron xidmətlərin göstərilməsi istiqamətində 2020-ci il ərzində bir sıra tədbirlər görülmüşdür.

Bu çərçivədə MMX-nin informasiya ehtiyatının və sisteminin nüsxələnməsi və proqram təminatının mütəmadi yenilənməsi həyata keçirilmişdir. Mütəmadi olaraq server avadanlıqlarında sistem və audit loq jurnallarının izlənməsi, eləcə də məxfiliyin qorunması və kənar müdaxilələrin məhdudlaşdırılması məqsədilə serverlərin və inzibatçıların şifrələrinin vaxtaşırı yenilənməsi də hesabat ili ərzində təmin edilmişdir.

MMX-nin İT infrastrukturunda mövcud maddi-texniki bazanın yenilənməsi həyata keçirilmişdir. Pandemiya zamanı korporativ şəbəkəyə uzaqdan qoşulmanın təmin edilməsi istiqamətində işlər görülmüşdür. Yeni nəsil kompyuter texnikası və periferik avadanlıqlar alınmışdır.

Ötən il ərzində MMX tərəfindən 13 müvafiq monitorinq subyekti və 22 yeni məsul şəxs goAML sistemində qeydiyyatdan keçirilmişdir.

MMX-nin rəsmi internet səhifəsinin indikatorları və istifadəçilərin sayı haqqında ərtaflı monitorinq aparmaq üçün beynəlxalq praktikada geniş istifadə olunan "Google Analytics" proqram təminatı quraşdırılmışdır. 2020-ci il üzrə internet səhifəsinin monitorinq nəticələri aşağıda təqdim olunur.

**Cədvəl 5.**
**2020-ci il ərzində MMX-nin İnternet səhifəsinin indikatorlarına dair hesabat**

| Seansların sayı | İstifadəçilərin sayı | Səhifələrin baxılması sayı | Yeni istifadəçilər | Qayıtmış istifadəçilər |
|---|---|---|---|---|
| 34 395 | 18 162 | 84 600 | 17 680 | 3 422 |